**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**ƏMR**

**№ Ü/192**

**Bakı şəhəri** **24 dekabr 2018-ci il**

**Azərbaycan Respublikasının baş dövlət baytarlıq müfəttişinin səlahiyyətləri ilə bağlı bəzi məsələlər haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 5.5.7-1-ci yarımbəndinə əsasən, Azərbaycan Respublikasının baş dövlət baytarlıq müfəttişini Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) sədri təyin edir.

Azərbaycan Respublikasının baş dövlət baytarlıq müfəttişi ilə bağlı mövcud qanunvericilikdə bir sıra normalar müəyyən edilsə də, onun səlahiyyətləri ilə əlaqədar bəzi məsələlər barədə müvafiq tənzimlənmə aparılmamış, müvafiq normalar müəyyən edilməmişdir.

Bununla əlaqədar, Agentliyin Kollegiyasının 2020-ci il 6 avqust tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Aparatının Heyvan sağlamlığı şöbəsinin Əsasnaməsi"nə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.11-1-ci, 3.0.33-10-cu və 5.5.10-cu yarımbəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Agentlik Aparatının Heyvan sağlamlığı şöbəsinin müdiri Qalib Hümmət oğlu Əbdüləliyevin eyni zamanda Agentlik sədrinin 2018-ci il 1 iyun tarixli K/081 nömrəli əmri ilə Azərbaycan Respublikasının baş dövlət baytarlıq müfəttişi təyin edildiyi nəzərə alınaraq, müəyyən edilsin ki, Azərbaycan Respublikasının baş dövlət baytarlıq müfəttişi qanunvericiliyə uyğun olaraq aşağıdakı vəzifələri icra edir:

1.1. Azərbaycan Respublikasının ərazisində aşkarlanmış xüsusi təhlükəli heyvan xəstəlikləri ilə bağlı Ümumdünya Heyvan Sağlamlığı Təşkilatına (ÜHST) bildiriş (notifikasiya) göndərir;

1.2. ayrı-ayrı ölkələrdə mövcud olan epizootik vəziyyəti izləyir, həmin ölkələrin xüsusi təhlükəli heyvan xəstəliklərinə dair bildirişlərini qəbul edir, həmin bildirişlər əsasında beynəlxalq tələblər nəzərə alınmaqla, xüsusi təhlükəli heyvan xəstəliklərinin yayıldığı ölkələrdən və ərazilərdən heyvan və heyvan mənşəli məhsulların idxalının məhdudlaşdırılması və ya qadağan edilməsi ilə bağlı icrası məcburi olan qərarlar qəbul edir və verilmiş qərarların icrasını nəzarətdə saxlayır;

1.3. beynəlxalq təşkilatların tələblərinə uyğun olaraq baytarlıq nəzarətinə dair dövlət siyasətinin istiqamətlərinin müəyyən edilməsində və tənzimlənməsinin həyata keçirilməsində iştirak edir;

1.4. Azərbaycan Respublikasının heyvan sağlamlığı məsələlərinə dair beynəlxalq müqavilələrin hazırlanmasında iştirak edir;

1.5. baytarlıq nəzarəti sisteminin (heyvanların identifikasiyası, izlənilməsi, geri çağırma və digər məsələlər üzrə) yaradılması və istifadəsi ilə bağlı təkliflər verir və tətbiqində iştirak edir;

1.6. Agentliyin regional bölmələrində çalışan baytarlıq müfəttişlərinin fəaliyyətinə təşkilati-metodiki dəstək göstərir;

1.7. özəl baytarlıq fəaliyyəti ilə məşğul olan mütəxəssislərin uçota alınmasını təmin edir;

1.8. baytarlıq müfəttişlərinə, özəl baytarlıq fəaliyyəti ilə məşğul olan subyektlərə və heyvandarlıq sahəsində fəaliyyət göstərən sahibkarlara baytarlıq qanunvericiliyinin tələblərinə uyğun olaraq epizootiya əleyhinə və digər tədbirlərin yerinə yetirilməsi üçün icrası məcburi olan göstərişlər verir və onların icrasını nəzarətdə saxlayır;

1.9. yoluxucu heyvan xəstəliklərinin, baytarlıq-sanitariya baxımından qida təhlükəsizliyi riskləri yaradan amillərin baş verməsi və yayılma səbəblərini araşdırır;

1.10. yoluxucu və ya kütləvi tələfata səbəb olan xəstəliklərin aradan qaldırılması və onların yayılmasının qarşısının alınması məqsədilə risk ərazisi üzrə karantin və məhdudlaşdırma tədbirləri barədə təkliflər verir;

1.11. epizootiya əleyhinə tədbirlərin yerinə yetirilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 oktyabr tarixli 156 nömrəli qərarı ilə təsdiq edilmiş “Epizootiya əleyhinə fövqəladə komissiyanın yaradılması və fəaliyyəti Qaydaları”na əsasən, Agentlikdə epizootiya əleyhinə fövqəladə komissiyanın yaradılmasına dair təklif verir və karantin tədbirlərinin həyata keçirilməsinə nəzarət edir.

2. Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu əmrin surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

3. Bu əmrin icrasına nəzarət Agentlik sədrinin müavini **Rəşad Mafusova** həvalə edilsin.

**Əsas:** Agentlik sədrinin 01 iyun 2018-ci il tarixli K/081 nömrəli əmrinin 3-cü hissəsi

**Sədr** **Qoşqar Təhməzli**